**Moskva və bütün Rusiyanın Patriarxı KİRİLLİN**
**Rus Pravoslav Kilsəsinin arxipastırlarına, keşişlərinə, diakonlarına, rahiblərinə və bütün sadiq övladlarına**
**Pasxa müraciəti**

**Ey Rəbdə sevimli arxipastırlar həzrətləri,**
**möhtərəm presviterlər və diakonlar, Tanrı aşiqi rahib və rahibələr,**
**əziz bacılar və qardaşlar!**

MƏSİH DİRİLDİ!

Bu böyük mənəvi güclə dolu, həyatverici sözlərlə hamınızı ürəkdən salamlayıram və sizi böyük və nurlu Müqəddəs Pasxa bayramı münasibətilə təbrik edirəm.

Təsadüfi deyil ki, Kilsə ənənəsi bu günü *bayramlar bayramı* və *zəfərlər zəfəri* adlandırır, çünki Məsihin Dirilməsi imanımızın və ümidimizin möhkəm təməlidir. Ondadır hər bir insanın surətinin dəyişilməsi və yenilənməsi, ondadır əbədi həyatın nuru və əbədi sevincin mənbəyi. Məsihin Dirilməsi bəşər övladının ən dəhşətli düşmənlərini - günahı və ölümü məhv etdi, Allahla insanlar arasındakı maneəni yox etdi və bizi şərin əsarətindən xilas etdi.

Müqəddəs Serbiyalı Nikolay Xilaskarın Dirilməsini tərənnüm edərək yazırdı ki, "Məsihin qələbəsi birincidən axırıncıya qədər bütün insanların sevinə biləcəyi yeganə qələbədir. Yer üzündəki hər hansı bir digər qələbə insanları bölüb və bölür... Lakin yalnız Məsihin qələbəsi günəş kimidir, onun altında dayananların hamısına parlaq şüalar yağdırır" (Söhbətlər. Ölümün Qalibi haqqında Müjdə).

Bu o deməkdir ki, xilas üçün səy göstərən hər bir insana, hər bir imanlıya və Məsihin davamçısına, həvari və müjdəçi Yəhyanın sözlərinə görə, günah üzərində qələbə qazanmaq və Allahın sevimli övladı olmaq imkanı verilir (1 Yəhya 3, 1).

Qədim yəhudilər Əhdi-Ətiq Pasxasını uzun illərin Misir əsarətindən azad olmalarına görə sevinərək qeyd edirdilər. Biz Pasxanı bir diyardan digərinə, hətta vəd edilmiş Diyar olsa belə, keçid kimi qeyd etmirik. Bizim Pasxamızın mənası başqadır. Rəbb bizi günahın qaranlığından və ölümün kölgəsindən xilas etdi (Luka 1, 79) və bizə Səmavi Padşahlığı bəxş etdi.

*"Məsih qəmli məhbusları azadlığın işığına çıxardı – onları sevinərək Cənnət zirvələrinə ucaltdı"* (XXXVIII Himn) – müqəddəs Suriyalı Efrayimin bu ilhamdolu sətirləri Pasxa sirrinin dərin təcrübəsini – insanın ona şərin təsirindən xilas olmasının sirrini ifadə edir. Şər yoxa çıxmayıb, lakin insan Allahın lütfünün qüdrəti ilə tövbə, dua və Müqəddəs Yevxaristiyada Xilaskarın Cisminə və Qanında şərik olmaqla şərlə mübarizə aparmaq və ona qalib gəlmək bacarığı qazanıb. Buna görə də, Həvari Paul ilə birlikdə iqrar edirik ki, *Məsihi ölülər arasından Dirildən, bizdə yaşayan Ruhu ilə bizin də fani bədənlərinizə həyat verəcək* (Rom. 8,11).

Məsihin Pasxası yer üzündəki fanilikdən Allahla əbədi həyata, Yaradanımız və Xilaskarımızla birliyə keçidə dəlalət edir. Buna görə də, bizim uğrumuza dirilmiş İsaya

görə sevinərək və Kilsənin bizə təqdim etdiyi ölməzliyin həqiqi Qidası və İçməsi olan Məsihin Cismini və Qanını bəxş edən *xilas Kasasını şükranlıqla qəbul edərək* (Məz. 115, 4), gəlin yorulmadan və dayanmadan Rəbbi, Onun sadiq şagirdləri olaraq, məhəbbət və mərhəmət əməllərimizlə izzətləndirək.

Yaxşılığa və Allahın iradəsinin yerinə yetirilməsi uğrunda can atmağımız bəzən *dul qadının kiçik leptonu* kimi görünsə də (Mark 12, 42), gəlin həmişə diqqətli olaq ki, imanımızın möhkəmliyi və ümidimizin sarsılmazlığı bizdə zəifləməsin, çünki *Rəbdə çəkdiyiniz zəhmətin boşa çıxmayacağını bilirik* (1 Kor. 15,58).

Gəlin Dirilmiş Xilaskara həmd edək və Onu izzətləndirək, bir-birimizi məhəbbətlə qucaqlayaq və Allahın bizi həyat yolumuzda bir araya gətirdiyi hər bir insanla sönməz Pasxa sevincini bölüşək, sözdə və əməldə şəhadət edək ki,

**MƏSİH HƏQİQƏTƏN DİRİLDİ!**

**MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRİARXI**

*Məsihin Pasxası*
*2025 il*